


# Ölkəmizi tanıyaq




## Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində səkkiz rayon və bir şəhəri təmsil edən, ümumilikdə, 300-dən çox məktəblinin Azərbaycanın şimal qapısı sayılan Qusar və qədim Quba ilə tanışlığı davam edir.

AZƏRTAC xəbər verir ki, noyabrın 18-də Şamaxı, İsmayıllı, Şəki, Oğuz və Qobustandan olan məktəblilərin Qusara səfəri şəhərin girəcəyində, ən yüksək yerdə inşa olunan Dövlət Bayrağı Meydanından başlayıb. Dəniz səviyyəsindən 689 metr yüksəklikdə yerləşən meydanda quraşdırılan 65 metr hündürlüyündəki dirəkdə Azərbaycan bayrağı əzəmətlə dalğalanır.

Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Qusar rayonu təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə məşhurdur. Qusarın inkişafı turizm sahəsində özünü daha aydın büruzə verir. "Şahdağ" Turizm Mərkəzi bu sahədə xüsusilə fərqlənir.

Məktəblilər yüksəklikdən Qusar şəhərinə tamaşa edib, xatirə şəkli çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olublar. Məktəblilərə buradakı hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumatlar verilib. Tur-aksiya iştirakçıları mərkəzin xidmətlərindən pulsuz yararlanmaq imkanı da qazanıblar.

Bildirilib ki, ölkəmizdə qış idman növlərinin inkişafında mühüm rol oynayan "Şahdağ" Turizm Mərkəzi xarici turistlərin Azərbaycana cəlb olunmasına da öz töhfəsini verir. Mərkəzdə turistlərin zövqünü oxşayan xidmətlərin sayının artırılması və keyfiyyətinin təkmilləşdirilməsi yolunda tədbirlər görülür.

Məktəblilər günün ikinci yarısında Həzrə kəndində "Şeyx Cüneyd" türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, Olimpiya İdman Kompleksi və rəsm qalereyası ilə yaxından tanış olublar.

❖❖❖

Qəbələ, Ağsu, Göyçay rayonlarını və Mingəçevir şəhərini təmsil edən şagirdlərdən ibarət qruplar isə noyabrın 18-də "Ölkəmizi tanıyaq" devizi ilə təşkil olunan maarifləndirici tur-aksiya çərçivəsində Quba rayonunun görməli yerlərini gəziblər. Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də Qudyalçayın üzərindəki Tağlı körpü ilə yaxından tanış olublar.

Zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, məbəd 1802-ci ildə tikilib. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.






Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini izləyiblər. Burada onlara Quba xalçaçılıq məktəbi haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Qubanı turistlər üçün cazibədar edən əsas cəhətlərdən biri də qədim tarixə malik xalça sənətkarlığıdır. Buraya gələn əcnəbilər əsrarəngiz təbiət mənzərələri, dünyaya nümunə göstərilən tolerant mühit, qədim tarixi və mədəni abidələrlə yanaşı, adı dillər əzbəri olan xalçalarla da yaxından maraqlanırlar. Quba xalçaları nəinki Azərbaycanda, hətta dünya ölkələrində də şöhrət qazanıb. Belə ki, bu regionun XVIII-XX əsrə aid Çiçi xalçaları Viktoriya və Albert (London), eləcə də Metropoliten (Nyu York) muzeylərində nümayiş olunur.

Şagirdlərin diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyevin Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinin, həmçinin xalçaçılığın inkişafı ilə bağlı tapşırıq və tövsiyələri bölgələrdə bu qədim el sənətinin inkişafına böyük təkan verib. Zəngin xalçaçılıq tarixinə, böyük sənaye potensialına malik Qubada bu sahə ilə məşğul olan müəssisənin fəaliyyət göstərməsi, yüksəkkeyfiyyətli məhsulların isə istər ölkə daxilində, istərsə də xarici bazarlarda rəqabət şəraitində özünə yer tapması həm xalqımızın min illərdən bəri qoruyub saxladığı qədim el sənətimizin yenidən inkişafına təkan verir, həm də regionun sosial-iqtisadi inkişafında rol oynayır.

Quba Soyqırımı Memorial Kompleksi və ərazidəki kütləvi məzarlığı ziyarət zamanı tur-aksiya iştirakçıları erməni daşnaklarının törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə erməni daşnaklarının yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyənləşib.

Günün ikinci yarısında məktəblilər Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Rixos Quba Azerbaijan" hotel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə də yaxından tanış olublar.

❖❖❖

Füsunkar təbiəti və tarixi-memarlıq abidələri ilə zəngin olan qədim Şəkinin budəfəki qonaqları Ağdaş, Füzuli, Göygöl, Siyəzən və Tovuz məktəbliləri idi.

Ənənəyə uyğun olaraq, tur-aksiyanın iştirakçıları Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyətinin rəsmiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

İcra hakimiyyəti başçısının müavini Zərinə Cavadova məktəblilərə qədim Şəkinin tarixi, mədəniyyəti, iqtisadiyyatı və turizm potensialı barədə qısa məlumat verib.

Bildirilib ki, 2700 ildən çox yaşı olan bu qədim diyar həm də dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Əsrarəngiz təbiəti, nadir tarixi-memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı, həmçinin zəngin irsinin qorunması nəticəsində Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib. Hər il bu şəhərdə beynəlxalq səviyyəli tədbirlər, festivallar keçirilir. 2016-cı ildə TÜRKSOY tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilən Şəki şəhəri bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəlib.

Səfər proqramına uyğun olaraq, tur-aksiya iştirakçıları şəhərin qədim tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisinə gəliblər. Qoruğu əhatələyən əzəmətli qala divarları məktəblilərin böyük marağına səbəb olub. Diqqətə çatdırılıb ki, qoruğun ərazisində dövlət tərəfindən qeydiyyata alınmış 25 tarixi abidə var. Bu ərazidə təbiət gözəllikləri ilə insanların yaratdıqları qədim abidələr vəhdət təşkil edir, bir-birini tamamlayır. Qoruğun ərazisində qədim məhəllə adları indiyədək qorunub saxlanılır.

Qoruğun ərazisində yerləşən XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsi - Şəki xanlarının sarayı ilə tanışlıq aksiya iştirakçılarında böyük maraq oyadıb. Bildirilib ki, Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi, "Müştaq" təxəllüsü ilə şeirlər yazan Hüseyn xanın dövründə - 1761-1762-ci illərdə inşa edilən bu sarayın dünyada bənzəri yoxdur. Sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb. İkimərtəbəli sarayda 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvan var. Saraydakı şəbəkəpəncərələr, ikinci mərtəbədəki otaqların tavan və divarlarını bəzəyən döyüş və ov səhnələri xüsusilə diqqəti cəlb edir.

Tur-aksiya iştirakçıları sarayın önündə xatirə şəkilləri çəkdiriblər.

Məktəblilər qoruğun ərazisində yerləşən V-VI əsrlərə aid memarlıq abidəsi - Dairəvi Məbəd, Tarix-Diyarşünaslıq və Xalq Tətbiqi Sənəti muzeyləri ilə də tanış olub, sənətkarlıq emalatxanalarına baş çəkib, şəhərin görməli yerlərini gəziblər.

❖❖❖

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Quba, Qusar, Xaçmaz, Şabran və Xızı rayonlarının məktəbliləri noyabrın 18-də Qəbələnin tarixi məkanları və görməli yerləri, rayonun sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, tarixi, mədəni irsi, adət-ənənələri, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri ilə tanış olublar.

Əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edən şagirdlər ulu öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlərə baxıblar. Sonra məktəblilər mərkəzlə yaxından tanış olublar. Bildirilib ki, mərkəz yetişməkdə olan gənc nəslin doğma vətənimizə layiqli vətəndaş kimi formalaşmasına mühüm töhfə verir. Heydər Əliyev Mərkəzi gündəlik fəaliyyətində uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafına, qabiliyyətlərinin üzə çıxarılmasına, onlarda vətənpərvərlik hisslərinin yüksəldilməsinə xüsusi diqqət ayırır. Təqdim edilən fotoşəkillər və video görüntü əsasında Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, eləcə də gündən-günə abadlaşan Qəbələnin yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaranıb.

Qəbələ ilə tanışlıq zamanı növbəti ünvan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub. Məlumat verilib ki, kompleksin 4 kanat xətti və 10 xizək yolu var. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" hoteli açılıb. Dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və ilin bütün fəsillərində gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Ümumilikdə 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu isə 17 kilometrdir.

Bildirilib ki, Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə turizm sahəsinin böyük payı var. Qəbələdə bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları Strateji Yol Xəritəsində öz əksini tapıb. Qəbələ rayonu həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə, eləcə də idman və mədəniyyət tədbirlərinin keçirildiyi mərkəz kimi tanınır. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasında mühüm rol oynayır. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Şagirdlər kanat yolu ilə uca dağların zirvəsinə qalxıb oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev adına Konqres Mərkəzi ilə tanış olan şagirdlərə məlumat verilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə başqa məqsədlər - konsert, iclas üçün kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir. Qeyd olunub ki, Qəbələ turizm bölgəsi olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli mədəniyyət, incəsənət tədbirlərinə, idman yarışlarına da uğurla evsahibliyi edir.

Sonra şagirdlər Tarix-Diyarşünaslıq Muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Bildirilib ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat var.

Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban-Udi kilsəsinə böyük maraqla baxıblar. Məlumat verilib ki, kilsə tarixi baxımdan qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə 3 kilsə və 2 məscid var. Altı min nəfər əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Nic qəsəbəsində udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilər "Beltmann" piano fabrikində və Qəbələ konserv zavodunda istehsal prosesini də izləyiblər. Həmçinin şagirdlər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna səfər edib, qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qəbələnin çox zəngin tarixi var. Bu rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur. Məktəblilər qədim Qəbələ şəhərinin bugünədək gəlib çatan qalıqları, qala divarı və burada aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri barədə ətraflı məlumatlandırılıblar.

Şagirdlər asudə vaxtlarında Qəbələnin müasir hotelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, bölgənin füsunkar təbiəti ilə tanış olub, ekskursiyadan məmnun qaldıqlarını bildiriblər.

Azərbaycan.- 2017.- 19 noyabr.- S.4.